

# Gürcüstan Vergi Məcəlləsi (GVM)

**(Qısa izahatlar)**


EPRC
Economic Policy Research Center

ABŞ-ın Gürcüstandakı Səfirliyinin
Demokratiyanın İnkişafı üçün Kiçikhəcmli
Qrantlar Proqramı tərəfindən
maliyyələşdirilib

# Gürcüstan Vergi Məcəlləsi
# (GVM)
## (Qısa izahatlar)

# Içindəkilər

Gəlir vergisi ........................................ 4

Gəlir vergisi ........................................ 10

Əlavə dəyər vergisi (ƏDV) ........................................ 14

Əmlak vergisi........................................ 19

## *Terminlərin mənası*

**Vergi –** büdcəyə məcburi**,** qeyri-ekvivalent və əvəzsiz ödəniş xarakterli mütləq, şərtsiz vergi ödəməsi.

**Vergi ödəyicisi–** iqtisadi fəaliyyətlə məşğul olan şəxs;

**İqtisadi fəaliyyət -** gəlir, mənfəət və təzminat əldə etmək üçün həyata keçirilən hər cür fəaliyyət;

**Şəxs**– fiziki və ya hüquqi, müəssisə və ya təşkilat;

**Fiziki şəxs** – Gürcüstan vətəndaşı, başqa ölkə vətəndaşı və ya vətəndaşlığı olmayan şəxs;

**Sahibkarlıq fəaliyyəti subyektləri**:
1. Fərdi sahibkarlıq
2. Şərikli sahibkarlıq
3. Bərabər məsuliyyətli cəmiyyət (BMC)
4. Şərikli cəmiyyət (ŞC)
5. Məhdud məsuliyyətli cəmiyyət (MMC)
6. Səhmdar cəmiyyəti (SC, korporasiya)
7. Kooperativ

**Müəssisə** – iqtisadi fəaliyyətlə məşğul olan təsisat

**Təşkilat** – fəlaiyyətində gəlir məqsədləri olmayan qeyri-sahibkar (qeyri-kommersiya) hüquqi şəxslər

**Rezident** – fiziki və ya hüquqi rezident şəxs; faktiki olaraq 180 gün və 12 təqvim ayından daha artıq müddətdə fasiləsiz olaraq Gürcüstan ərazisində yaşayan fiziki şəxs.

***GÜRCÜSTANDA MÖVCUD OLAN VERGILƏR***

**Ümumdövlət vergiləri:**

- **Gəlir vergisi**
- **Mənfəət vergisi**
- **Əlavə dəyər vergisi (ƏDV)**
- **Aksiz**
- **İdxal vergisi**
- **Yerli vergilər:**
- **Əmlak vergisi**

***VERGI MÜNASIBƏTLƏRININ SUBYEKTLƏRI VƏ QURLUŞU***

**Vergi ödəyicisi**
**Vergiyə cəlb olunan obyekt**
**Vergi məzənnəsi**
**Vergidən azad olunma**
**İnzibatçılıq qaydaları**

# Gəlir vergisi

**Vergi ödəyicisi (maddə 79)**

а) rezident fiziki şəxs

б) Gürcüstand yerləşən mənbədən gəlir əldə edən qeyri-rezident fiziki şəxs

**Qeyd***: Gürcüstandakı mənbədən əldə edilən gəlir GVM-nin (Gürcüstan Vergi Məcəlləsinin) 104-cü maddəsi ilə təyin edilir.*

**Vergiyə cəlb olunan obyekt (maddə 80):**

a) Rezidentlərin gəlirləri üzrə vergitutma obyekti **vergi ili üçün rezidentlərin bütün gəliri ilə** həmin dövr üçün GVM ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir.

b) Qeyri-rezidentlərin gəlirləri üzrə vergitutma obyekti **vergi ili üçün rezidentlərin bütün gəliri ilə** həmin dövr üçün GVM ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir.

**Ümumi gəlir –** İstənilən formada və/və ya istənilən fəaliyyət nəticəsində əldə edilən gəlirlərin cəmi**,** o cümlədən:

а) əmək haqqı şəklində əldə edilən gəlir;

b) iqtisadi fəaliyyət nəticəsində əldə edilən gəlir;

г) muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən digər gəlir;

**Vergi məzənnəsi (maddə 81):**

Fiziki şəxsin gəlirinin 20%-i vergiyə cəlb olunur və tədricən növbəti xronoloji ardıcıllıqla 15%-ə qədər endirilir:

| **İl** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|
| **Vergi məzənnəsi** | **20%** | **18%** | **15%** |

**Gəlir vergisindən azad olunma (maddə 82):**

- 2 ildən artıq müddətdə mülkiyyətdə olan mənzilin satışından əldə edilən gəlir;
- 6 aydan artıq müddətdə mülkiyyətdə olan avtonəqliyyat vasitəsinin satışından əldə olunan gəlir;
- Gürcüstanda fiziki şəxs tərəfindən istehsal olunan məhsulun ilkin təhvili, 200 000 lariyə qədər;
- 1 000 lariyə qədər qiyməti olan hədiyyə olunmuş əmlakın dəyəri, işəgötürənin muzdlu işçiyə hədiyyə etdiyi əmlakın dəyəri istisna olmaqla;
- 1-ci və ya 2-ci növbəli varislərin hədiyyə şəklində və ya miras halında əldə etdikləri əmlakın dəyəri;

- 3-ci və ya 2-ci növbəli varislərin hədiyyə şəklində və ya miras halında əldə etdikləri əmlakın dəyəri;

***Qeyd:*** Gürcüstan Mülki Məcəlləsinin №1336 maddəsinə (varislik) əsasən müəyyən olunur:
1 -ci növbədə – uşaqlar, ər (arvad), valideynlər;
2 -ci növbədə – bacılar və qardaşlar, bacı və qardaş uşaqları və onların uşaqları;
4 -ci növbədə – əmilər-dayılar və bibilər-xalalar;
5 -ci növbədə – əmilər-dayıların və bibilər-xalaların uşaqları;

**Gəlir vergisinə cəlb olunmanın xüsusi rejimləri**
A) Mikrobiznes statuslu fiziki şəxslər;
Б) Kiçik biznes statuslu fiziki şəxslər;

***Qeyd:*** *Mikro və kiçik biznesin statusunun hüquqi tənzimlənməsi GVM-nin XII fəsli ilə müəyyən olunur(gəlir vergisinə cəlb olunmanın xüsusi rejimləri, maddə83-95).*

## Mikrobiznes (maddə 84)

Muzdlu işçilərin əməyindən istifadə etəyən və illik ümumi gəlirlərinin cəmi 30 000 laridən yuxarı olmayan və fiziki şəxslərə mikrobiznes statusu verilə bilər

**30 000 larilik məhdudiyyətin şamil edilmədiyi fəaliyyət növlərinin siyahısı:**
1. Traktor və kombayn vasitəsi ilə alınan (becərilən) kənd təsərrüfatı məhsulları;
2. Xalça və xalça məmulatlarının istehsalı;
3. Puloverlərin(kazak) və oxşar məhsulların istehsalı;
4. Üst paltarlarının istehsalı, modellərin nümayiş etdirdiklərindən başqa;
5. Şalvar istehsalı;
6. Papaq istehsalı;
7. Digər paltar və aksesuarların istehsalı;
8. Ayrı-ayrı ağac məmulatlarının istehsalı;
9. Paltar və papaq üçün ağac asılqanlarının istehsalı;
10. Ağacdan hazırlanan ev əşyalarının və mətbəx ləvazimatlarınn istehsalı;
11. Çini və gildən  hazırlanan təsərrüfat-məişət məmulatlarının istehsalı;
12. Təsərrüfat-məişət qab-qacaqlarının və əşyalarının və istehsalı;
13. Musiqi alətlərinin istehsalı;
14. Akkordeon və oxşar alətlərin istehsalı;
15. Nəfəs musuqu alətlərinin istehsalı;
16. Süpürgə və daraq istehsalı;
17. Məişət mallarının və şəxsi istifadə əşyalarının istehsalı və təmiri;
18. Ayaqqabı və dəri məmulatlarının təmiri;
19. Məişət elektron əşyalarının təmiri;

20. Saat və zərgər məmulatlarının təmiri;
21. Paltarların yenidən işlənməsi və təmiri;
22. Məişət mallarının və şəxsi istifadə əşyalarının təmiri;
23. Mələfələrin və digər tekstil məmulatlarının yuyulması və işlənməsi;
24. Ev təsərrfatı ilə bağlı xidmət.

***Qeyd:*** *Mikrobiznes statusuna malik fiziki şəxs, yuxarıda göstərilən fəaliyyəti müstəqil şəkildə həyata keçirməli, muzdlu şəxslərin əməyindən istifadə etməməli, malların istehsalını və ya xidmətləri, onların istifadəçiyə çatdırılmasını pərakəndə şəkildə özü həyata keçirməlidir.*

**Qadağa – mikrobiznes statusunun şamil olunmasına icazə verilməyən fəaliyyət növlərinin siyahısı:**

**Mikrobiznes statusunun verilməsi**
1. Lisenziyalaşması və ya icazə alınması gərəkən fəaliyyət növləri;
2. İl ərzində gəliri 30 000 larini aşa biləcək fəaliyyət növləri;
3. Valyuta əməliyyatlarının həyata keçirilməsi;
4. Tibbi, memarlıq, vəkillik və ya notarial, auditor, məşvərətçi fəaliyyət;
5. Oyun biznesi;
6. Ticarət.

**Mikro biznes statusunun verilməsininin qadağan olunmadığı, ancaq vergi tutulmanın xüsusi rejiminə aid olmayan gəlir növləri ümumi gəlirdə hesaba alınmır:**
1. Əmlakın icarəyə verilməsindən əldə olunan gəlir
2. Borc verilməsindən əldə edilən gəlir
3. Oyun biznesindən əldə olunan gəlir
4. Hədiyyədən əldə olunan gəlir
5. Növbəti əmlakdan əldə olunan əlavə gəlir:
   a) daşınmaz əmlak
   b) avtonəqliyyat vasitəsi
   ç) qiymətli kağızlar
6. Miras alınmış əmlakdan əldə olunan gəlir
7. Dividend şəklində əldə olunan gəlir
8. Faiz şəklində əldə olunan gəlir
9. Qonorar şəklində əldə olunan gəlir
10. Borcun bağışlanmasından əldə olunan gəlir

**Mikrobiznes statusunun verilməsi (maddə 85)**

- fiziki şəxs vergi ödəyicisi kimi qeydiyyatdan keçməli və yuxarıda göstərilən bütün tələblərə uyğun olmalıdır (muzdlu əməkdən istifadə etmir, müstəqil iqtisadi fəaliyyət göstərir, ümumu

gəlirlərinin cəmi 30 000 larini aşmır və s.)

- fiziki şəxs mikrobiznes statusuna sahib olmaq üçün ərizə ilə qeydiyyat yeri üzrə vergi orqanına müraciət etməlidir

- vergi orqanı 2 iş günü ərzində ərizəyə baxır və mikrobiznes sertifikatı verir

- mikrobiznes statusu sertifikatın verildiyi gündən əldə olunmuş hesab olunur

- ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxsə (müəyyən istisna hallardan başqa) mikrobiznes statusu şamil olunmur.

**Mikrobiznes statusunun ləğv olunması**

Baş verir, əgər:
1. Fiziki şəxs statusun ləğv olunması üçün vergi orqanına müraciət edərsə
2. Əmtəənin və maddi ehtiyatın mal qalığı 45 000 laridən yüksək olarsa
3. Fiziki şəxs qadağan olunmuş fəaliyyət həyata keçirərsə
4. Fiziki şəxsin muzdlu işçisi olarsa (ailə üzvləri hesaba alınmır)
5. Fiziki şəxsin ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmə məcburiyyəti yaranarsa (12 təqvim ayı ərzində ümumi gəlir 100 000 larini aşarsa)
6. Təqvim ili ərzində ümumi gəlir 30 000 larini aşarsa.

***Qeyd:*** Əgər mikrobiznes statusu olan fiziki şəxs, mikrobiznes üçün qadağan olunmuş fəaliyyət həyata keçirərsə, o, mikrobiznes statusundan məhrum olunur və 500 lari həcmində cərimələnir.

**Mikrobiznesin vergilərdən azad olunması (maddə 86)**
- mikrobiznes statusu olan fiziki şəxs gəlir vergisi ödəmir
- mikrobiznes statusu olan fiziki şəxslər cari vergiləri ödəmirlər
- mikrobiznes statusu olan fiziki şəxslər nəzarət kassa aparatları istifadə etməkdən azad olunurlar
- mikrobiznes statusu olan fiziki şəxs aldığı xidmətin haqqını ödəyərkən gəlir mənbəyinə görə vergiyə cəlb olunmur (qeyri-rezidentin geri vergi ödəmə şəklində həyata keçirdiyi ƏDV-yə cəlb olunan xidmətlərdən başqa).

**Mikrobiznes üzrə öhdəliklər**
1. Mikrobiznes statusu olan fiziki şəxs, əgər alıcı tələb edərsə, satdığı məhsula və ya göstərdiyi xidmətə görə ilkin vergi sənədi yazmağa borcludur
2 Mikrobiznes statusu olan fiziki şəxs, ilkin vergi sənədi yazarkən, sənəddə öz statusunu və status sertifikatının nömrəsini yazmağa borcludur

3. Mikrobiznes statusu olan fiziki şəxs onun üçün və ya özü tərəfindən yazılmış ilkin sənədi müəyyən olunmuş qaydada saxlamağa borcludur
4. Mikrobiznes statusu olan fiziki şəxs vergi sənədini 6 il ərzində saxlamağa borcludur.

## Kiçik biznes statusunun verilməsi (maddə 89)

- kiçik biznes statusu, vergi uçotunda olan və təqvim ili ərzində iqtisadi fəaliyyətdən əldə etdiyi ümumi gəliri 100 000 larini aşmayan sahibkar fiziki şəxsə verilə bilər.

**Qadağa – kiçik biznes statusunun şamil olunmasına icazə verilməyən fəaliyyət növlərinin siyahısı:**
1. Lisenziyalaşması və ya icazə alınması gərəkən fəaliyyət növləri;
2. Ciddi sərmayə tələb olunan fəaliyyət növləri (aksizli məhsulların istehsalı)
3. Valyuta əməliyyatlarının həyata keçirilməsi;
4. Tibbi, memarlıq, vəkillik və ya notarial, auditor, məşvərətçi fəaliyyət;
5. Oyun biznesi;
6. Personalla (işçi heyətlə) təmin olunma;
7. Aksizli məhsulların istehsalı.

**Kiçik biznes statusunun verilməsininin qadağan olunmadığı, ancaq vergi tutulmanın xüsusi rejiminə aid olmayan gəlir növləri ümumi gəlirdə hesaba alınmır:**
1. Əmlakın icarəyə verilməsindən əldə olunan gəlir
2. Borc verilməsindən əldə edilən gəlir
3. Oyun biznesindən əldə olunan gəlir
4. Hədiyyədən əldə olunan gəlir
5. Növbəti əmlakdan əldə olunan əlavə gəlir:
   a) daşınmaz əmlak
   b)avtonəqliyyat vasitəsi
   ç) qiymətli kağızlar
6. Miras alınmış əmlakdan əldə olunan gəlir
7. Dividend şəklində əldə olunan gəlir
8. Faiz şəklində əldə olunan gəlir
9. Qonorar şəklində əldə olunan gəlir
10. Borcun bağışlanmasından əldə olunan gəlir
11. Ortağın payının satılmasından əldə olunan qalıqlar.

**Kiçik biznes statusu ləğv olunur, əgər:**
1. O, mikro və kiçik biznes statuslu şəxs üçün qadağan olunmuş fəaliyyət həyata keçirərsə
2. O, ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmişsə; onun buna hüququ olduğu və ƏDV ödəyicisi kimi qeydiyyatının ləğv olunması xahişi ilə vergi orqanlarına müraciət etməsi hallarından başqa

3. Əmtəə-maddi ehtiyatın qalığı 150 000 larini aşarsa
4. Təqvim ili ərzində iqtisadi fəaliyyətdən əldə etdiyi ümumi gəlir 100 000 larini aşarsa.

**Kiçik biznesin vergiyə cəlb olunan gəliri və vergi məzənnəsi (maddə 90):**
- kiçik biznesin gəliri 5 faizlik vergiyə cəlb olunur
- kiçik biznesin gəliri 3 faizlik vergiyə cəlb olunur, əgər:
    a) onun toplu əmək haqlarını çıxdıqdan sonra ümumi gəlirin 60%-i həcmində sənədlərlə əsaslandırılmış xərcləri olarsa
    б) fəaliyyət yalnız xüsusi ticarət zonasının ərazisində həyata keçirilir.

***Qeyd:*** Kiçik biznesin vergiyə cəlb olunan gəliri, Gürcüstanda yerləşən mənbədən əmək haqqı şəklində əldə edilən gıəlir istisna olmaqla, ümumi gəlirdən ibarətdir.

**Kiçik biznesin gəlir və xərclərinin mühasibatı (maddə 91):**
1. Kiçik biznes statusu olan fiziki şəxsin gəlir və xərclərin mühasibatını standart formada aparmamaq hüququ var (o, xərclərin uçotu üçün xüsusi jurnaldan istifadə edir)
2. Xərclərin təsdiq olunması ümumi qaydada həyata keçirilir (əmtəə fakturası, satınalma aktı).
3. İstehlakçı ilə nəqd ödəmələr zamanı nəzarət kassa aparatlarından istifadə məcburidir.

***Qeyd:*** Kiçik biznesə il ərzində dəyən ziyan növbəti vergi ilinə köçürülmür.

**Mikro və kiçik biznesin bəyannamə təqdimi (maddə 93):**
1. Mikro və kiçik biznes statusu olan fiziki şəxslər 1 aprelə qədər sadələşdirilmiş gəlir vergisi formasını vergi uçotu yerinə təqdim etməlidirlər.
2. İqtisadi fəaliyyətin dayandırılması və ya statusun ləğv olunması hallarında bəyannamə 30 təqvim günü ərzində təqdim olunmalıdır.

# Gəlir vergisi

**Rezident hüquqi şəxs**
Vergi ödəyicisi – rezident müəssisə
Vergiyə cəlb olunan obyekt – məcəllə ilə nəzərdə tutulmuş qaydada ümumi gəlirlə çıxılmış məbləğin fərqi.
Vergi məzənnəsi – 15 faiz




**Məhsulların/xidmətlərin çatdırılmasından əldə olunan gəlir, iqtisadi fəaliyyətdən əldə olunan gəlirlərə aid edilir**

- Havayı çatdırılan məhsul/xidmət zamanı məhsulun/xidmətin bazar qiyməti ümumu gəlirdə öz əksini tapır. Bu, müstəqil istehlakçı xüsusiyyətlərinə sahib olmayan və çatdırılan məhsulun/xidmətin ayrılmaz tərkib hissəsi olan  reklam məhsulunun ödənişsiz çatdırılmasına aid edilimir.

- İcarəyə verənə əsas vasitələrin qaytarılması (maddə 100.4) GVM-nin 115-ci maddəsinin 4-cü hissəsinin "b" altbəndinə əsasən ümumi gəlirdə əks olunmur.

- GVM-nin 115-ci maddəsinin 4-cü hissəsinin “b” altbəndinə əsasən, icarə müddətinin bitdiyi və vaxtından əvvəl xətm olunduğu halda, əgər ilkin vasitələrin icarəyə verənə qaytarılması həyata keçirilərsə, qeyd edilən ilkin vasitələrin təmir xərclərindən tərtib olunmuş balans qrupunun dəyəri sıfıra bərabərlişdirilir və qalan məbləğ ümumi gəlirdən çıxılmır. **İlkin vasitələrin icarəyə verənə qaytarılması təchizat sayılmır.**

**İcarə müddətinin bitməsi və ya icarənin vaxtından əvvəl xətm olunması zamanı ilkin vasitələrin icarəyə verənə qaytarılması ƏDV-yə cəlb olunan əməliyyat sayılır (maddə 161).**

- Ləğv olunma zamanı, özünün pay bölgüsünə uyğun olaraq, aktiv payının hüquqi şəxsə (50 və ya daha yüksək faizə sahib olana) verilməsi aktivlərin satışı hesab olunmur (maddə 150);

Bununla belə, əgər tərəfdaş qeyri-rezident şəxsdirsə, bu əməliyyat satış sayılır.

Əgər tərəfdaş vergi orqanına müraciət edərsə və o (vergi orqanı) vergidən yayınma hallarının olmadığı barədə nəticə çıxararsa, bu əməliyyat satış sayılmır. Belən olan halda vergi orqanı müvafiq arayış verir.

- GVM-nin 136-cı bəndinə əsaən, gəlirdən çıxılan bütün xərclər sənədlə əsaslandırılmalıdır.

- Xərclərin əsaslandıraılmasının məcburi olmadığı, həmçinin, xərclərin sənədlərlə əsaslandırılmasında Məcəllənin tələbləri nəzərə alınmadan sənədlər siyahısının keçərli olduğu hallar da mövcuddur.

**Gürcüstan maliyyə nazirinin 996№-li əmri (maddə 31)**

1. Xərclərin əsaslandırılmasının məcburi olmadığı hallar:

*Məhsulun/xidmətin ödənişsiz çatdırılması nəticəsində gəlirdən çıxılmanı məcburi edən mənfəət.*

2. Məcəllənin tələbləri nəzərə alınmadan xərcləri təsdiq edən sənədlərin siyahısı:

*İcarəyə verənin adından icarəçinin icarə üzrə xərclər haqqında təqdim etdiyi sənəd. Gürcüstan hüdudlarından kənarda cavabdeh şəxsin iqtisadi fəaliyyətə sərf etdiyi yanacağın əldə olunması üçün müvafiq ölkənin müəyyən etdiyi qaydaya əsasən verilən qəbz və üzdə olan xərc.*

- Vergi ödəyicisi, Məcəllədən irəli gələn məhdudiyyətləri nəzərə almaqala, məhsulun və ya xidmətin iqtisadi fəaliyyət üçün həyata keçirildiyi hesabat ilində məhsulla/xidmətlə ödənişsiz təchizat zamanı mənfəət əldə etmə hüququna malikdir (maddə 105.4).

- Vergi ödəyicisi əlavə edilmə metodundan istifadə edərsə, məbləğin ödənilməsi vaxtı xərclərin çəkilməsi vaxtı hesab olunur, əgər (maddə 142.4):
1.Ödəniş fiziki şəxlə əlaqədardırsa;
2. Qəbul edilmiş xidmətə görə ödənilən məbləğ qeyri-rezidentin daimi müəssisəsinə aid olmayan qeyri-rezident müəssisə ilə əlaqədardırsa.

***Qeyd:*** *Bu qayda maliyyə institutlarına şamil edilmir.*

- Müəssisənin əsas kapitalına aid olan ilkin vasitələrdən başqa, ilkin vasitələrin istismara verildiyi vergi ilində vergi ödəyicisi əldə etdiyi ilkin vasitələrə tam çıxılma (100%-lik köhnəlmə) metodunu tətbiq etmə hüququna malikdir (maddə 112. 1).

- vergi ödəyicisi müvafiq xərcin çəkildiyi hesabat ilində ümumi gəlirdən 1000 lariyə qədər dəyərdə qeyri-maddi aktiv çıxa bilər (maddə 113.1).

**Mal-maddi varlığın silinməsi qaydaları GVM-nin 145-ci maddəsi və maliyyə nazirinin 994№-li əmrinə əsasən müəyyən olunur, xüsusilə də:**

- Vergi ödəyicisi vergi orqanına ərizə ilə müraciət etməyə, ona silinəcək MMV (mal-maddi varlıq) barəsində sənəd və xidmət haqqının ödənildiyi barədə sənəd əlavə etməyə borcludur ( qiymət MMV-nin dəyərinin 5%-i həcmində, ancaq 3000 laridən az, 5000 laridən yuxarı olmamalıdır);
- İstifadə müddəti ötmüş və/və ya istifadəyə yararsız MMV silinə bilər.
- Vergi orqanı ərizəni qəbul etdikdən sonra 3 iş günündən gec olmayaraq MMV-nin silinməsi sənədinin tərtib və təsdiq olunması barədə akt verməlidir. Bununla bərabər, silinmənin qanuniləşdirilməsi günlərinin sayı 5 iş gününü aşmamalıdır.

**Dividendlərin vergiyə cəlb olunması (maddə 130)**

| İl | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Məzənnə | 5% | 3% | 0% |

**Faizin vergiyə cəlb olunması (maddə 131)**

| İl | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Məzənnə | 5% | 3% | 0% |

**İcarənin vergiyə cəlb olunması** – qeyri-rezidentin daimi müəssisəsi və ya qeyri-rezident tərəfindən rezident fiziki şəxsə icarə xidməti müqabilində ödənilən məbləğ, ödəniş mənbəyindən vergiyə cəlb olunur.

| İl | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Məzənnə | 20% | 18% | 15% |

**Zəif kapitallaşma (maddə 123)**

- **Zəif kapitallaşma** – borc götürən şəxslə borc verənin münasibəti, əgər şəxsin verdiyi borcun öz kapitalına nisbəti 5/1-dən artıqdırsa.
- Zəif kapitallaşma zamanı şəxs tərəfindən ödənilmiş və/və ya ödəniləcək faizonun ümumi gəlirindən çıxılmır.
- göstərilən qaydalar şamil olunmur:
    1. Maliyyə institutlarına
    2. Əgər müəssisənin gəliri 200 000 larini aşmırsa
    3. Əgər xərclər, ümumi gəlirdən çıxılacaq xərclərin 20 faizini aşmırsa.

# Əlavə dəyər vergisi (ƏDV)

***Vergi ödəyicisi (maddə 156):***
- ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxs,
- ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyə borclu olan şəxs,
- Gürcüstana məhsul idxal edən və ya müvəqqəti gətirən şəxs – yalnız bu idxala və ya müvəqqəti gətirdiyi məhsula görə,
- ƏDV ödəyicisi qeydiyyatı və daimi müəssisəsi olmadan xidmət göstərən qeyri-rezident bu xidmət üzrə geri vergi ödəməyə cəlb olunur.

**Vergidən azad edilmə (maddə 168):**
- imtiyaz hüququ ilə (sıfır)
- imtiyaz hüququ olmadan.

**Qeydiyyat**
- Hüquqi qeydiyyatın məsuliyyəti təyin olunarkən nəzərə alınmır (maddə 157.8):
    1. Yoxlanma hüququ olmadan vergitutulma əməliyyatından azad olunma
    2. Yoxlanma hüququ ilə vergitutulma əməliyyatından azad olunma
- Qeydiyyatın ləğv olunması (maddə 159.2):
    1. Əgər son 12 təqvim ayı ərzində vergi ödəyicisinin həyata keçirdiyi vergi tutulma əməlliyyatına aid olan ümumi məbləği 100 000 larini aşmırsa və onun ƏDV ödəyicisi kimi son qeydiyyat tarixindən 1 il keçibsə.

**Vergiyə cəlb olunan obyekt, məbləğ, vaxt (maddə 161):**
1. **Vergiyə cəlb olunan əməliyyat**– Gürcüstan ərazisində həyata keçirilən məhsul/xidmət çatdırmaları
2. **Məbləğ** – ƏDV-siz əldə edilən və ya əldə edilməsi nəzərdə tutulan məbləğ və/və ya cərimələr
3. **Vaxt** – məhsulun çatdırıldığı və ya xidmətin göstərildiyi vaxt:
    a) məhsulun çatdırılmasına və ya göstərilən xidmətə görə təchizatçının ödəniş tələbinin və/və ya məbləğin ödəniləcəyi müddət öhdəliyinin təqdim olunma zamanından gec olmayaraq;
    b) əgər məhsul davamlı və ya fasiləsiz olaraq çatdırılırsa, hesabat ilinin son günündən gec olmayaraq.

**- qeyri-iqtisadi fəaliyyət məqsədi ilə ƏDV əvəzi məhsulun/xidmətin istifadə olunması; əgər ödəyici bu məhsul/xidmət üzrə təzminat alıbsa, bu halda:**

**Məbləğ** – məhsulun/xidmətin ƏDV-siz bazar qiyməti

**Vaxt** – məhsulun/xidmətin istifadəsinə başlanıldığı müddət.

**- ƏDV ödəyicisi qeydiyyatının ləğv olunarkən ödəyicinin təzminat aldığı mal qalığı. Bu halda:**

**məbləğ** – məhsulun balans qalığı

**zaman** – qeydiyyatın ləğvinin qüvvəyə mindiyi tarix.

**- Özünün istehsalı olan bina və tikililərin əsas vasitə kimi istifadə olunması. Bu halda:**

**məbləğ** – aktivin dəyəri

**zaman** – əsas vasitənin istismara başlanıldığı müddət.

**- icarə müqaviləsinin müddətinin bitməsi və ya onun vaxtından əvvəl xətm edilməsi səbəbindən əsas vasitələrin icarəçiyə qaytarılması. Bu halda:**

**məbləğ** – təmir üçün xərc qrupunun dəyər balansı,

**zaman** – icarə müqaviləsinin müddətinin bitməsi və ya onun vaxtından əvvəl xətm edilməsi vaxtı.

**- Uzunvədəli müqavilə halında, əgər əməliyyatların həyata keçirilməsi zamanı çatmayıbsa, vergiyə cəlb olunur:**

**məbləğ** – təqvim ili üçün müqavilədə nəzərdə tutulan çəkilmiş xərclərlə ümumu xərclər tutuşdurularaq, faktiki icranın həcmi ilə hesablanır.

**zaman** – hər ilin dekabrında gec olmayaraq.

**Vergiyə cəlb olunan əməliyyatın məbləği aşağıdakı hallarda məhsulun/xidmətin bazar qiyməti ilə təyin olunur:**

1. Vegiyə cəlb olunan əməliyyatın əvəzində məhsul/xidmət alır və/və ya məhsul/xidmət almaq hüququna malikdir.
2. Anlaşma bir-birindən asılı olan şəxslər tərəfindən həyata keçirilir.
3. Əməkdaşa məhsul/xidmət çatdırılan halda.
4. Məhsulun/xidmətin təzminatsız çatdırılması halında.
5. Qeyd olunan qiymətin faktiki qiymətdən fərqli olduğunu vergi orqanı əsaslandırarsa.
6. Şəxs turizm zonası sahibkarına-subyektinə məhsul/xidmət çatdırarsa.

**Xidmət göstərilən yer hesab oıunur (maddə 166):**

1. Göstərilən xidmətlə əlaqəsi olan daşınmaz əmlakın yerləşdiyi yer.
2. Faktiki xidmət göstərilən yer, əgər:
   a) xidmət daşınan əmlakla əlaqədardırsa;
   b) xidmət mədəniyyət, incəsənət, təhsil, turizm, istirahət, bədən tərbiyəsi və idman sahəsində həyata keçirilərsə;
   c) Yükləmə və boşaltma kimi əlavə nəqliyyat xidməti göstərilərsə.
3. Əgər xidmət cari daşıma ilə əlaqədardırsa, yükdaşımanın və ya sərnişin daşımanın ilk nəqlə başlanıldığı yer;
4. Xidmət olunan və ya xidmət göstərən şəxslər ayrı-ayrı ölkələrdə olarlarsa, o zaman bu yer kimi, xidmət olunan şəxsin və ya idarənin və ya daimi müəssisənin qeydiyyat yeri sayıla bilər

- əgər xidmət birbaşa göstərilən daimi müəssisə ilə əlaqədardırsa. Bu qaydalar növbəti xidmət növlərində tətbiq olunur:

- *qeyri-maddi aktivlərin ötürülməsi, məsləhət, hüquq, mühasibat, mühəndis xidməti, məlumat və informasiyaların hazırlanması/ötürülməsi, işçilərlə təminolunma, daşınan əmlakın icarəyə verilməsi (nəqliyyat vasitələrindən başqa), reklam xidməti, telekommunikasiya və teleyayım xidməti, elektron şəklində göstərilən xidmətlər*

5. Xidmət göstərən şəxsin iqtisadi fəaliyyətlə məşğul olduğu yer.

## ƏDV-dən azad edilmə (maddə 167):

**- bu azad olunmalar mövcuddur:**

a) imtiyaz hüququ ilə;

b) imtiyaz hüququ olmadan.

***Qeyd:*** Vergi ödəyicisi imtiyaz hüququ olmadan vergi azadedilməsindən istifadə etmədən, ƏDV əməliyyatına cəlb oluna və imtiyaz qazana bilər.

## ƏDV-nin məqbulluğu:

- Məqbulluq üçün sənədlər (maddə 173):

a) vergi hesab-qaiməsi

b) mal bəyannaməsi

c) büdcəyə geri vergi ödəməni təsdiqləyən sənəd

ç) büdcəyə müvəqqəti ödənişlər zamanı ödənilən məbləği təsdiq edən sənəd

d) Özəl istehsal olan bina və tikililərin əsas vasitə kimi istifadə olunması zamanı əməliyyata əlavə olunan ƏDV məbləğini özündə əks etdirən ƏDV bəyannaməsi

e) İctimai hüquqlu hüquqi şəxlər tərəfindən nəzərdə tutulmuş və Gürcüstan hökumətinin qərarı ilə müəyyən olunmuş xidmətin dəyərinin ödənilməsini əsaslandıran sənəd.

**ƏDV üzrə məqbulluğa aid edilən məbləğlər (maddə 174.1)**

a) ƏDV qeydiyyatının qüvvədə olduğu müddətə qədər məhsul alışına, qəbul olunan xidmətə, idxala və/və ya müvəqqəti mal gətirilməsinə görə, həmçinin, maddi-məhsul dəyərlərinin qalığına görə məqbulluq sənədinə əsasən ödəilnmiş və ya ödənilməli olan məbləğ;

b) Xüsusi istehsal olan bina və tikililərin ilkin vasitə olaraq istifadəsi zamanı əməliyyata əlavə olunan və ƏDV bəyannaməsində qeyd olunan ƏDV məbləği eyni zamanda məqbulluğun əldə edilməsi üçün əsas sayılır.

**Əgər məhsul/xidmət istifadə olunursa və ya artıq istifadə olunubsa, ƏDV məqbulluğu həyata keçmiş sayılır (maddə 174.2):**

a) məqbulluq hüququ olmadan nəzərdə tutulan vergitutulma əməliyyatları istisna olmaqla,

vergiyə cəlb olunan əməliyyatlar zamanı;

b) məhsul idxalı zamanı

c) Gürcüstan hüdudlarından kənarda xidmət həyata keçirərkən.

**ƏDV məqbulluğu həyata keçirilmir (maddə 174.3):**

a) şəxsin sosial məqsədlər, əyləncəli tədbirlər, təmsilçilik üçün çəkdiyi xərclərə;

b) istifadəsi nəzərdə tutulan məhsul/xidmət istehsalı üçün məqbulluq hüququ olmadan vergitutulma əməliyyatlarından azad edilən məbləğə və/və ya ƏDV məbləğinə;

c) rüblük hesabatın bitməsindən sonra növbəti hesabat dövründən gec olmayaraq təqdim olunmuş ƏDV bəyannaməsində öz əksini tapmayan vergiyə cəlb olunan əməliyyatın hesab-qaiməsi ilə;

ç) hesabat dövrünün (aylıq) bitməsindən sonra növbəti üç hesabat dövründən gec olmayaraq təqdim olunmuş ƏDV bəyannaməsində öz əksini tapmayan vergiyə cəlb olunan əməliyyatın hesab-qaiməsi ilə;

**yuxarıda qeyd olunan məhdudiyyətlər məqbulluq üzrə növbəti sənədlər üçün keçərli deyil:**

1. Mal bəyannaməsi;
2. Geri vergiödəmənin ödənildiyi barədə sənəd;
3. Müvəqqəti idxal zamanı ƏDV ödənməsi barədə sənəd;
4. İHHŞ (ictimai hüquqlu hüquqi şəxs)tərəfindən göstərilən xidmətin ödənməsi barədə sənəd.

- **ƏDV məqbulluğu:**

**- ilkin vasitələr halında, əgər o istifadə olunmuşsa və/və ya istifadə olunacaqsa (maddə 174.7)**

1. Yalnız ƏDV ödəyicisinin məqbulluq almağa hüququnun olduğu əməliyyatlar üçün məqbulluq ilk hesabat dövründəcə qəbul olunacaq.
2. Yalnız ƏDV ödəyicisinin məqbulluq alma hüququnun olmadığı əməliyyatlar üçün məqbulluq alınmayacaq.
3. Eyni zamanda iki növ əməliyyat həyata keçiriləndə, onları ayırmaq mümkün deyilsə, əgər məhsul və ya xidmət əməliyyatlarda eyni zamanda məqbulluq hüququ və məqbulluq hüququ olmadan istifadə olunarsa, onları ayırmaq mümkün deyildir (maddə 174.6):
   a) Məqbulluğa aid edilən ƏDV məbləği, göstərilən il üzrə məqbulluq hüququ olmayan dövriyyə və məqbulluq hüququ olan dövriyyə arasındakı nisbətlə hesablanır, bununla belə, əgər ötən il üzrə məqbulluq hüququ olmayan vergitutulma əməliyyatlarına aid edilən məbləğ ümumi dövriyyənin 20%-indən azdırsa, məqbulluq tamamilə qəbul olunur.
   b) digər hallarda məqbulluq hər ilin sonunda hesabat dövrünün bəyannaməsi ilə müəyyən olunur.

**İllik ləğvolunmaya və ƏDV məqbulluğuna aid olan məbləğ hesablanır:**

a) bina və tikililərə - istifadəyə verildikdən sonra 10 təqvim ili ərzində ƏDV məbləğinin onda biri həcmində (maddə 174.8)

b) digər əsas vasitələrə – İstifadəyə verildikdən sonra 5 təqvim ili ərzində ƏDV məbləğinin beşdə biri həcmində.

**ƏDV məbləği ləğv oluna bilməz (maddə 174.10, 174.11):**

1. Əgər təqvim ili ərzində məqbulluq hüququ olan vergiyə cəlb olunan məbləğ ümumi dövriyyənin 5 faizini təşkil edərsə;
2. Mal-maddi varlığın silinməsi halında;
3. Əgər məhsulun itməsi halı baş veribsə və səlahiyyətli orqan tərəfindən zərərin maksimum həddi müəyyən olunubsa.

**ƏDV hesab-qaiməsi**

**Vergi hesab-qaiməsi (maddə 175):**

1. Vergiyə cəlb olunan əməliyyatlar zamanı yazılır;
2. Əgər şəxs məhsul təchizatının uçotunu dövri əlavəolunmalarla həyata keçirirsə (elektrik enerjisi, su, qaz və s.), həm hesabat dövrünü, həm də ondan əvvəlki dövrü bu dövriliklə yaza bilər.

***Məhsul/xidmət alan şəxsin tələbi ilə şəxs, tələbi aldıqdan sonra 30 təqvim günündən gec olmayaraq, vergi hesab-qaiməsini yazmağa və onu məhsul/xidmət alan şəxsə təqdim etməyə borcludur.***

***Qeyd*** : Qeyri-rezident tərəfindən ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməmiş vergi agentinə göstərilən xidmət Gürcüstan ərazisində ƏDV-yə cəlb olunur.

**ƏDV tənzimlənməsi (maddə 175):**

**Tənzimlənmənin vacib şərtləri:**

1. Vergiyə cəlb ilunan əməliyyat ləğv olunub;
2. Vergiyə cəlb ilunan əməliyyatın növü dəyişdirilib;
3. Kiçiltmə səbəbi ilə və ya başqa səbəbdən öncədən razılaşdırılmış əməliyyat təzminatının məbləği dəyişdirilib;
4. Məhsul/xidmət tamamilə və ya qismən ƏDV ödəyicisinə qaytarılır.

# Əmlak vergisi

Əmlak vergisi ödəyicisi və vergiyə cəlb olunan obyekt (maddə 201)

| Vergi ödəyicisi | vergiyə cəlb olunan obyekt |
|---|---|
| Rezident müəssisəsi/təşkilatı | balansdakı əsas vəsaitlər |
| | quraşdırılmamış qurğular |
| iqtisadi fəaliyyətlə məşğul olan fiziki şəxs | iqtisadi fəaliyyət zamanı istifadə olunan əmlak |
| | yarımçıq tikililər |
| | maddi olmayan aktivlər |
| | icarəyə verilmiş əmlak |
| qeyri-rezident müəssisə | Gürcüstan ərazisində yerləşən əmlak |
| fiziki şəxs | xüsusi mülkiyyətdə olan daşınmaz əmlak: yaxtalar, təyyarələr |
| | qeyri-rezidentdən icarəyə götürülmüş əmlak |

**Əmlak vergisi məzənnəsi müəssisə/təşkilat (maddə 202):**
1. İllik vergi məzənnəsi 1 faizdən artıq təyin olunmur.

**Vergiyə cəlb olunan əmlakın dəyəri (maddə 202):**
1. Aktivlərin ilin əvvəlinə və sonuna görə hesablanan orta illik qalıq balans dəyəri.

**Orta illik qalıq balans dəyəri  artır (maddə 202):**

a) 2000-ci ilə qədər alınan aktivlərə görə - 3 dəfə;
b) 2000-2004-cü ilə qədər alınan aktivlərə görə - 2 dəfə;
c) 2004-cü ildə alınan aktivlərə görə - 1,5 dəfə;
ç) alınması barədə məlumat olmayan aktivlərə görə – 3 dəfə.

***Yuxarıda göstərilən qiymətləndirmə, əgər müəssisə öz balansında olan əmlakını yenidən qiymətləndirmə metodu ilə uçota alarsa və Gürcüstan hökumətinin qərarı ilə təyin olunmuş şəxslər tərəfindən hazırlanmış yalnız 4 il istifadə oluna bilən audit maliyyə yoxlamasna  malik olarsa, keçərli sayılmır.***

**Əmlak vergisi məzənnəsi – fiziki şəxs (maddə 202):**

1. Fiziki şəxsin vergiyə cəlb olunan əmlaka görə illik vergi məzənnəsi vergi ödəyicisinin ailəsinin əldə etdiyi gəlirə əsasən aşağıdakı həcmdə müəyyən olunur:

| Ailə gəliri | Vergi məzənnəsi |
|---|---|
| 100 000 lariyə qədər | 0,05%-dən 0,02%-ə qədər |
| 100 000 laridən yuxarı | 0,8%-dən 1%-ə qədər |

*GVM-nin 206-cı maddəsinə əsasən (vergidən azad olunma) yuxarıda göstərilən gəlirlərin həcmi 40 000 lariyə qədər azaldılmışdır.*

**Torpağa görə əmlak vergisi ödəyicisi və vergiyə cəlb olunan obyekt (maddə 203):**
Fiziki və hüquqi şəxs torpağa görə əmlak vergisi ödəyicisi sayılır.

**Vergiyə cəlb olunan obyekt:**
- onun mülkiyyətində olan torpaq;
- onun istifadə etdiyi və ya ona aid olan dövlət mülkiyyətində olan torpaq;
- ona aid olan və ya onun mülkiyyətində olan torpaq.

**Torpağa görə əmlak vergisi məzənnələri (maddə 204):**
- Torpağa görə əmlak vergisi məzənnələri torpaq növünə görə fərqlənir (kənd təsərrüfatı və qeyri kənd təsərrüfatı torpaqları), həmçinin, vergi məzənnəsi yerli özünüidarənin nümayəndəlik orqanının təyin etdiyi torpaq kateqoriyaları üzrə fərqlənir.

**Kənd təsərrüfatı torpaqlarında əmlak üzrə vergi məzənnəsi:**

| Torpaq növü | 1 hektar üçün vergi məzənnəsi | Yerli özünüidarə limiti (son hədd) |
|---|---|---|
| Biçinlər və otaracaqlar | 1,5-dən 20 lariyə qədər | 150% |
| Digər torpaqkar | 50-dən  100 lariyə qədər | 150% |
| Kolxoz və sovxoz meşələrinin torpaqları | 20-dən 50 lariyə qədər | 50% |

**Kənd təsərrüfatı torpaqlarında əmlak üzrə vergi məzənnəsi:**
- vergi üzrə bazis (əsas) məzənnə bir kvadrat metr üçün 0,24 larini təşkil edir;
- yerli özünüidarənin nümayəndəlik orqanı ildə bir dəfə 1,5-dən yüksək olmayan ərazi koeffisienti tərtib edir. Qeyri kənd təsərrüfatı torpaqlarına görə 1 kv. Metr üçün əmlak vergisi növbəti formula ilə hesablanır: əsas məzənnə ərazi koeffisientinə vurulur.

**Əmlak vergisinin hesablanması və ödənməsi (maddə 205)**

| Vergi | Ödəyici | Bəyan etmə | ödəmə | |
|---|---|---|---|---|
| | | | cari | yekun |
| Əmlak vergisi | Hüquqi şəxs | 1 aprelə qədər | 15 iyuna qədər | 1 aprelə qədər |
| | Fiziki şəxs | 1 maya qədər | - | 15 noyabra qədər |
| Torpağa görə əmlak vergisi | Hüquqi şəxs | 1 aprelə qədər | - | 15 noyabra qədər |
| | Fiziki şəxs | 1 maya qədər | - | 15 noyabra qədər |

- fiziki şəxsin vergiyə cəlb olunan əmlakı (torpaqdan başqa), əgər bu şəxsin ailəsinin illik gəliri cari təqvim ilindən öncəki ildə 40 000 larini aşmamışsa;

- təşkilatın iqtisadi fəaliyyət üçün istifadə olunmayan torpağı və əmlakı.